**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən çap mediası subyektlərinin inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, habelə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsi məqsədilə təşkil edilən müsabiqənin**

# Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 31 iyul tarixli 2957 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın (bundan sonra – Konsepsiya) müsabiqəli maliyyə yardımının göstərilməsinə dair müddəalarının yerinə yetirilməsi və "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Nizamnaməsi"nin 3.1.3-cü, 3.1.6-cı və 3.1.12-ci yarımbəndlərinin icrası məqsədilə keçirilən müsabiqə (bundan sonra – Müsabiqə) ilə əlaqədar hüquqi və təşkilati məsələləri tənzimləyir.

1.2. Müsabiqənin məqsədi çap mediası subyektlərinin inkişafına, iqtisadi müstəqilliyinin gücləndirilməsinə, fəaliyyətinin təkmilləşdirilməsinə yönəldilən, həmçinin Konsepsiyaya uyğun olaraq, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinin təşkil edilməsi və bununla əlaqədar qəzet redaksiyalarına maliyyə yardımının göstərilməsidir.

1.3. Müsabiqənin başlama və bitmə tarixi Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (bundan sonra – Agentlik) tərəfindən müəyyən edilir.

1.4. Müsabiqə barədə elan Agentliyin rəsmi internet saytında, habelə sosial şəbəkə hesablarında yerləşdirilir.

## 2. Müsabiqənin ümumi şərtləri

2.1. Müsabiqə ictimai-siyasi qəzetlər arasında keçirilir.

2.2. Müsabiqədə iştirak etmək üçün müraciət etmiş qəzet redaksiyaları Müsabiqə elan olunan günədək son 3 (üç) aylıq dövr ərzində hər ay üzrə 2 (iki) nömrə olmaqla, ümumilikdə 6 (altı) nömrələrini bu Qaydalara uyğun olaraq Agentliyə təqdim edirlər.

## 3. Müsabiqədə iştirak

3.1. Bu Qaydaların 2.1-ci bəndində nəzərdə tutulmuş qəzetlər aşağıdakı tələblərə cavab verdikdə müsabiqədə iştirak edə bilər:

3.1.1. Media Reyestrinə daxil edilmiş olmalıdır;

3.1.2. Müsabiqə elan olunan günədək son 1 (bir) il ərzində müntəzəm nəşr olunmalı, dövriliyi həftədə bir dəfədən, birdəfəlik tirajı 1500 nüsxədən və yayımı (abunə və satışı) 1000 nüsxədən az olmamalıdır;

3.1.3. yenidən təşkil (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə), müflis olma, ləğv edilmə prosesində olmamalıdır;

3.1.4. redaksiyanın yaradıcı heyəti ən azı beş nəfərdən ibarət olmalıdır.

3.2. Qəzetlərin birdəfəlik tirajı və yayımına (abunə və satışına) dair bu Qaydaların 3.1.2-ci yarımbəndində nəzərdə tutulmuş tələblər avqust ayı ərzində 50 (əlli) faizədək azaldıla bilər.

3.3. Müsabiqəyə müraciət edən qəzet redaksiyalarından aşağıdakı sənədlər tələb olunur:

3.3.1. qəzetin məsul redaktorunun və ya təsisçisinin ərizəsi (bütün bəndləri doldurulmuş və imzalanmış olmalıdır) *(əlavə olunur)*;

3.3.2. Media Reyestri şəhadətnaməsi;

3.3.3. vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamə;

3.3.4. hüquqi şəxs olduqda qəzet redaksiyasının nizamnaməsi;

3.3.5. Müsabiqə elan olunan günədək son 1 (bir) il ərzində qəzetin müntəzəm nəşr olunmasını təsdiq edən arayış;

3.3.6. mətbəə tərəfindən verilən və qəzetin dövriliyini təsdiq edən arayış;

3.3.7. qəzetin birdəfəlik tirajını təsdiq edən elektron qaimələr (mətbəə qaimələri) (Müsabiqə elan olunan günədək son 12 ay üzrə);

3.3.8. qəzetin tiraj bölgüsünə dair məlumatı əks etdirən təsdiqlənmiş sənəd (Müsabiqə elan olunan günədək son 12 ay üzrə);

3.3.9. qəzetin abunə və satışına dair yayımçı tərəfindən təsdiq edilən arayışlar və elektron qaimələr (Müsabiqə elan olunan günədək son 12 ay üzrə);

3.3.10. qəzetin müvəkkil bankın möhürü və səlahiyyətli şəxsinin imzası ilə təsdiq edilmiş aktiv bank hesabı üzrə rekvizitlərini əks etdirən sənəd;

3.3.11. qəzetin bu Qaydaların 3.1.4-cü yarımbəndinin, eyniadlı veb-saytının isə bu Qaydaların 6.3-cü bəndinin tələblərinə cavab verdiyini təsdiq edən çap olunma tarixi Müsabiqəyə müraciətdən ən geci 7 (yeddi) gün əvvələ qədərki dövrə aid olan əmək müqaviləsi bildirişləri (veb-saytın işçilərinə dair əmək müqaviləsi bildirişləri təqdim edilə bilmədikdə həmin işçilərin veb-saytda müvafiq vəzifələri icra etdiyinə dair təşkilati-sərəncamverici sənədlər);

3.3.12. bu Qaydaların 2.2-ci bəndində göstərilən nömrələr.

3.4. Müsabiqənin elanından əvvəlki yarımildə maliyyə yardımı göstərilmiş qəzet redaksiyaları yalnız bu Qaydaların 3.3.1-ci, 3.3.11-ci və 3.3.12-ci yarımbəndlərində nəzərdə tutulan sənədləri təqdim edir, zərurət yarandıqda artıq mövcud olan şəxsi kabinetlərində “qəzetin əməkdaşları haqqında məlumat” hissəsinə daxil etdikləri məlumatları bu Qaydaların 3.3.11-ci bəndinin tələblərinə uyğun olaraq yeniləyir.

3.5. Bu Qaydaların 3.1-ci və 3.3-cü bəndlərinin tələblərinə cavab verməyən müraciətlər Müsabiqə zamanı nəzərə alınmır.

3.6. Müsabiqədə iştirak üçün təqdim olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə həmin çatışmazlıqların bu Qaydaların 1.3-cü bəndində nəzərdə tutulmuş müddət ərzində aradan qaldırılmasına yol verilir.

3.7. Qəzet redaksiyası qəzeti ilə eyniadlı veb-saytını yeniləmək istədikdə bununla bağlı niyyətini bu Qaydaların 3.3.1-ci yarımbəndində göstərilən ərizədə ifadə edir.

3.8. Bu Qaydaların 3.7-ci bəndi eyniadlı veb-saytını əsaslı yeniləmək məqsədilə maliyyə yardımı almaq hüququndan istifadə etmiş qəzet redaksiyalarına şamil edilmir.

3.9. Müsabiqəyə müraciət bu Qaydaların 3.3-cü bəndində nəzərdə tutulmuş sənədlərin “.pdf” yaxud “.jpeg” versiyasının (skan edilmiş surəti və ya fotoşəkli) “Medianın inkişafına dəstək layihələri üzrə elektron informasiya bankı”na (bundan sonra – Elektron informasiya bankı) daxil edilməsi yolu ilə edilir.

3.10. Müsabiqəyə müraciət etmək üçün qəzet redaksiyası Elektron informasiya bankında qeydiyyatdan keçməli və şəxsi kabinetini yaratmalıdır.

3.11. Müsabiqədə iştirak üçün müraciət etmiş qəzet redaksiyası bu Qaydaları qəbul etmiş hesab edilir və təqdim edilmiş sənədlərin tamlığına və düzgünlüyünə görə cavabdehlik daşıyır.

3.12. Agentlik Müsabiqədə iştirak üçün təqdim edilmiş sənədlərin əslini tələb etmək hüququna malikdir.

3.13. Bu Qaydaların 3.3.1-ci yarımbəndində nəzərdə tutulmuş əlavə bu Qaydaların ayrılmaz tərkib hissəsidir.

## 4. Qiymətləndirmə

4.1. Bu Qaydaların 2.2-ci bəndində nəzərdə tutulmuş nömrələrin qiymətləndirilməsi Agentlik tərəfindən cəlb edilmiş müstəqil ekspertlər – müvafiq sahədə zəngin bilik və təcrübəyə, ictimai nüfuza malik və peşəkar, Müsabiqənin nəticəsində marağı olmayan şəxslər tərəfindən həyata keçirilir.

4.2. Eyni nömrələr üç fərqli ekspert tərəfindən fərdi qaydada aşağıdakı meyarların hər biri üzrə ən aşağı “0”, ən yüksək “20” bal olmaqla qiymətləndirilir və hər bir nömrə barədə yazılı rəylər verilir:

4.2.1. materialların orijinallığı;

4.2.2. mövzuların jurnalistikanın ümumi prinsiplərinə uyğunluğu;

4.2.3. mətnlərin üslubi keyfiyyətləri, dilin norma və qaydalarına əməl olunması;

4.2.4. plagiat və ya emal olunmamış materialların (copy-paste) həcmi;

4.2.5. qəzetin tərtibatının müasir standartlara uyğunluğu.

4.3. Ekspertlər tərəfindən verilən fərdi qiymətlər Agentlik tərəfindən ümumiləşdirilir və ən yüksək bal toplamış qəzetlər qalib elan olunur.

4.4. Eyni bal toplamış qəzetlərin hər birini bu Qaydalara uyğun olaraq qalib elan etmək mümkün olmadıqda, onlara verilmiş müvafiq yazılı rəylər əsasında qalib müəyyən olunur.

4.5. Müsabiqənin nəticəsi barədə məlumat Agentliyin rəsmi internet saytında, habelə sosial şəbəkə hesablarında yerləşdirilir.

## 5. Maliyyə yardımının göstərilməsi

5.1. Bu Qaydalara uyğun olaraq qalib elan edilmiş qəzet redaksiyaları ilə Agentlik arasında maliyyə yardımının göstərilməsinə dair müqavilə imzalanır və maliyyə yardımının həyata keçirilməsinə başlanır.

5.2. Agentlik tərəfindən həftədə bir nömrəsinə maliyyə yardımı göstərilən qəzetlərin hər birinə aylıq 5000 (beş min) manat, həftədə beş nömrəsinə maliyyə yardımı göstərilən qəzetlərin hər birinə isə aylıq 15000 (on beş) min manat məbləğində maliyyə yardımı göstərilir.

5.3. Müsabiqədə qalib elan olunan qəzet redaksiyaları Agentlik tərəfindən maliyyə yardımı göstərilən hər nömrədə (həftədə bir nömrəsinə maliyyə yardımı göstərilən qəzetlər həftədə bir dəfə, həftədə beş nömrəsinə maliyyə yardımı göstərilən qəzetlər isə həftədə beş dəfə olmaqla) aşağıdakı sahələrdən hər hansı biri üzrə ən azı 500 (beş yüz) sözdən ibarət məqalənin hazırlanaraq dərc olunmasını təmin edirlər:

5.3.1. vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu;

5.3.2. fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi;

5.3.3. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması;

5.3.4. ictimai və dövlət maraqlarının müdafiəsi;

5.3.5. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;

5.3.6. Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;

5.3.7. işğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”;

5.3.8. Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği;

5.3.9. azərbaycançılıq ideyasının təbliği;

5.3.10. gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi;

5.3.11. regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi;

5.3.12. azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi;

5.3.13. informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi;

5.3.14. diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi;

5.3.15. dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;

5.3.16. elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması;

5.3.17. ekologiya və ətraf mühitin mühafizəsi;

5.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması;

5.3.19. uşaq və gənclərin fiziki və mənəvi inkişafı.

5.4. Bu Qaydaların 5.3-cü bəndində nəzərdə tutulan məqalə həftədə bir nömrəsinə maliyyə yardımı göstərilən qəzetlər tərəfindən hər növbəti ay, həftədə beş nömrəsinə maliyyə yardımı göstərilən qəzetlər tərəfindən isə hər növbəti həftə əvvəlkindən fərqli sahələrdə yazılmalıdır.

5.5. Bu Qaydaların 5.3-cü bəndində göstərilən məqalənin dərc olunduğu səhifədə onun Agentliyin maliyyə yardımı ilə çap olunduğu və müəllifi qeyd olunmalı, həmin material ən geci növbəti gün qəzetin eyniadlı veb-saytında yerləşdirilməli, qəzetin və veb-saytın müvafiq səhifəsində Agentliyin loqosu yer almalıdır.

5.6. Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə əsasən fors-major hesab olunan hallarda, habelə istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri, ümumxalq hüzn günü və anım günündə bu Qaydaların 5.3-cü bəndinin tələblərinin yerinə yetirilməməsi maliyyə yardımının göstərilməsinə dair müqavilə şərtlərinin pozulması hesab edilmir.

5.7. Maliyyə yardımı bu Qaydaların 8-ci hissəsi nəzərə alınmaqla, 6 (altı) ay müddətində davam etdirilir.

5.8. Maliyyə yardımının göstərilməsinə dair müqavilə imzalamış qəzet redaksiyası həmin müqavilənin qüvvədə olduğu müddət ərzində hər ayın sonu müvafiq maliyyə vəsaitinin hansı istiqamətlərə xərcləndiyini təsdiq edən sənədləri Agentliyə təqdim edir.

## 6. Maliyyə yardımına əlavələr

6.1. Maliyyə yardımı göstərilən ay üzrə qəzetin yalnız fiziki şəxslərdən ibarət hər əlavə 500 (beş yüz) abunəsi üçün aylıq 200 (iki yüz) manat, hər əlavə 1000 (bir min) abunəsi üçün isə aylıq 400 (dörd yüz) manat məbləğində bonusun verilməsi nəzərdə tutulur. Bu halda müvafiq abunə müqavilələrinin surətləri Agentliyə təqdim edilir.

6.2. Müsabiqədə qalib elan olunan hər bir qəzet redaksiyasının eyniadlı veb-saytına aylıq 3000 (üç min) manat məbləğində maliyyə yardımı göstərilir.

6.3. Bu Qaydaların 6.2-ci bəndində nəzərdə tutulan maliyyə yardımının göstərilməsi üçün qəzet redaksiyasının eyniadlı veb-saytının bir nəfər məsul redaktor, bir nəfər jurnalist, bir nəfər texniki işçi yaxud bir nəfər məsul redaktor, iki nəfər jurnalist olmaqla ən azı üç nəfərdən ibarət redaksiya heyəti olmalıdır.

6.4. Maliyyə yardımı göstərilən dövr ərzində bu Qaydaların 6.3-cü bəndində göstərilən işçilərin hər birinin əməkhaqqının minimum məbləği 600 (altı yüz) manat təşkil etməli, maliyyə yardımının digər hissəsi isə vebsaytın infrastrukturunun gücləndirilməsi, dil imkanlarının genişləndirilməsi, təhlükəsizliyinin təmin edilməsi və rəqəmsal keyfiyyətinin

artırılmasına (istifadəçinin səhifədə qalma müddətinin artırılması, təkrar qayıdışların təmin edilməsi və (və ya) subyektin axtarış mühərriklərində asan tapılması istiqamətində optimallaşdırıcı mexanizmin tədbiq olunmasına) yönəldilməlidir.

6.5. Qəzetlər bu Qaydaların 5.2-ci bəndində nəzərdə tutulandan daha artıq dövriliklə çap olunmaqda sərbəstdirlər. Bu halda həftə ərzində çıxan əlavə nömrələrə görə Agentlik tərəfindən əlavə maliyyə yardımının göstərilməsi nəzərdə tutulmur.

## 7. Qəzetin eyniadlı veb-saytının əsaslı yenilənməsi üçün maliyyə yardımı

7.1. Qalib elan olunan qəzetin məsul redaktorunun və ya təsisçisinin müsabiqəyə müraciət ərizəsində qəzetinin eyniadlı veb-saytını əsaslı yeniləmək niyyətini ifadə etmişdirsə, maliyyə yardımı göstərilən 6 (altı) aylıq dövrün birinci ayında ona həmin veb-saytın əsaslı yenilənməsi məqsədilə 5000 (beş min) manat, ikinci ayından etibarən isə 3000 (üç min) manat məbləğində vəsait ayrılır.

7.2. Maliyyə yardımı göstərilən ikinci ayın sonunda aparılan monitorinq nəticəsində həmin veb-saytın müasir standartlara uyğun gəlmədiyi müəyyənləşdirildikdə ona digər aylar üzrə maliyyə yardımının ödənilməsi dayandırılır.

7.3. Bu Qaydaların 7.1-ci bəndi eyniadlı veb-saytını əsaslı yeniləmək məqsədilə maliyyə yardımı almaq hüququndan istifadə etmiş qəzet redaksiyalarına şamil edilmir.

## 8. Maliyyə yardımının dayandırılması

8.1. Agentlik maliyyə yardımı göstərilən qəzetlərin bu Qaydaların tələblərinə əməl etməsi vəziyyətinin monitorinqini aparır.

8.2. Bu Qaydaların 8.1-ci bəndində nəzərdə tutulmuş monitorinq nəticəsində Redaksiya tərəfindən müqavilə şərtlərinin pozulduğu aşkar edildikdə Agentlik həmin ay üzrə maliyyə yardımının ödənilməsini dayandırır və aşkar edilmiş pozuntuların aradan qaldırılması ilə bağlı Redaksiyaya xəbərdarlıq edir.

8.3. Redaksiya tərəfindən bu Qaydaların 8.2-ci bəndində nəzərdə tutulmuş xəbərdarlığa növbəti ay əməl edilmədikdə Agentlik maliyyə yardımı müqaviləsinə birtərəfli qaydada xitam verməklə maliyyə yardımını dayandırır.

8.4. Qanunun 65.2-ci maddəsinə uyğun olaraq çap mediası subyektinə xəbərdarlıq edildikdə və ya çap mediası subyekti media sahəsində fəaliyyət azadlığından sui-istifadə etməyə görə inzibati tənbeh aldıqda Agentlik müvafiq olaraq xəbərdarlıq edildiyi və ya inzibati tənbeh aldığı ay üzrə Redaksiyaya maliyyə yardımının ödənilməsini dayandırır.

8.5. Qanunun 65.2-ci maddəsində göstərilən əsaslarla çap mediası subyektinin fəaliyyətinin 2 (iki) ay müddətinə dayandırılması barədə məhkəmə qarşısında iddia qaldırıldıqda Agentlik Redaksiyaya maliyyə yardımının ödənilməsini dayandırır. Məhkəmə iddianı təmin etmədikdə Agentlik iddiaya məhkəmədə baxıldığı müddətdə ödənilməmiş maliyyə yardımının ödənilməsini təmin edir, bu şərtlə ki, subyekt həmin müddətdə 5.3-cü bəndin tələblərinə əməl etsin.

8.6. Qanunun 65.2-ci maddəsində göstərilən əsaslarla məhkəmə tərəfindən çap mediası subyektinin fəaliyyəti 2 (iki) ay müddətində dayandırıldıqda Agentlik həmin aylar üzrə Redaksiyaya maliyyə yardımının ödənilməsini dayandırır.

8.7. Qanunun 65.4-cü maddəsində göstərilən əsaslarla çap mediası subyektinin fəaliyyətinə xitam verilməsi barədə məhkəmə qarşısında iddia qaldırıldıqda Agentlik Redaksiyaya maliyyə yardımının ödənilməsini dayandırır. Məhkəmə iddianı təmin etmədikdə Agentlik iddiaya məhkəmədə baxıldığı müddətdə ödənilməmiş maliyyə yardımının

ödənilməsini təmin edir, bu şərtlə ki, subyekt həmin müddətdə 5.3-cü bəndin tələblərinə əməl etsin.

8.8. Qanunun 65.4-ci maddəsində göstərilən əsaslarla məhkəmə tərəfindən çap mediası subyektinin fəaliyyətinə xitam verildikdə Agentlik maliyyə yardımı müqaviləsinə birtərəfli qaydada xitam verir.

8.9. Çap mediası subyekti Media Reyestrindən çıxarıldıqda Agentlik maliyyə yardımı müqaviləsinə birtərəfli qaydada xitam verir.

8.10. Redaksiyanın Müsabiqədə saxta sənədlər və ya həqiqətə uyğun olmayan məlumatlar təqdim etməklə qalib gəldiyi məlum olduqda Agentlik maliyyə yardımı müqaviləsinə birtərəfli qaydada xitam verməklə maliyyə yardımını dayandırır və müvafiq müqavilənin qüvvədə olduğu müddət ərzində Agentlik tərəfindən qəzet redaksiyasına ödənilmiş maliyyə yardımı həmin redaksiya tərəfindən Agentliyə geri qaytarılır.